Elmi araşdırma, alimlərin həyata keçirdiyi ən vacib fəaliyyətlərdən biridir. Yaxşı bir alim olmağın bugünkü müqayisəsinə baxdıqda fərqli metriklərin və reytinglərin (Google Scholar, Scopus Citescore kimi) olduğu görünür. İncəsənət sahəsindəki bir akademikin yaxşı alim olması çətinliyi həm incəsənət sahəsində yaxşı bir icraçı (ifaçı), həm də alimlərin müqayisəsində istifadə olunan alətlərdə (tətbiq edilən meyarlar) və platformalarda ön sıralarda olmasının çətinliyidir.

Türkiyə, ali təhsil sisteminin inkişafı baxımından bir çox dövrlərdən keçmiş bir ölkədir. Cümhuriyyətin ilk illərindəki islahatlar, xarici ölkələrdən akademiklərin gəlməsi, xaricdə magistratura təhsilinin dəstəklənməsi, ali təhsil şurasının (YÖK) qurulması, universitetlərarası şuranın (ÜAK) qurulması, akademik jurnalçılığın Dergipark sistemi (Web 1) ilə dəstəklənməsi kimi bir çox vacib hadisələr yaşanmışdır. Türkiyənin akademik (alim) sıralamasının dünyada hansı vəziyyətdə olduğu mövzusuna girmək istəmirəm. Yeni universitetlərin və yeni bölmələrin qurulması səbəbilə akademikə (alimə) olan tələbatın yaranması, bu akademiklərin (alimlərin) akademik (elmi) təyinat və yüksəlişlərində ən vacib göstəricilərdən biri olan məqalə nəşr etdirmə mövzusu əhəmiyyət qazanmışdır. Bu araşdırmada musiqi ilə bağlı məqalələrin keyfiyyətlərinə və bu nəşrlərin jurnallardan qəbuluna təsir edə biləcək meyarları müəyyən etməyə çalışdım.

1 Doç. Dr., Editör, Antalya, Türkiye. E-mail: hasansaidfen@gmail.com
[2] Ətraflı məlumat Türk Müziği jurnalının veb saytında yer almaqdadır (Web 2)

YÖK Akademik platformasında "sənət" sözü ilə aparılan axtarışda 4357 akademik (alim, tədqiqatçı) var. Akademiklərin (alimlərin) platformaya daxil etdikləri məlumatlara əsasən istehsal etdikləri elmi məhsullar; məqalə (10355), patent (12), kitab (5924) və dissertasiya (8757) şəklindədir (Web 3). Ümumi bir şərh ilə sənət sahəsindəki tədqiqatçıların adambaşına (hər birinə) orta hesabla 2 məqalə istehsal etdikləri söylənə bilər. "Musiqi" sözü ilə aparılan axtarışda isə akademiklərin (alimlərin, tədqiqatçıların) sayının 1984 olduğu görünür. Buradan sənət sahəsi ilə bağlı məlumatların demək olar ki, yarısının musiqi sahəsindən gəldiyi deyilə bilər. Türkiyədə sənət və musiqi sahəsindəki akademiklərin elmi tədqiqat performanslarının artırılması mövzusu digər bütün akademiklərdə olduğu kimi, ümumiyyətlə, "dərc olunan məqalə" ilə qiymətləndirilir. Dünyaca məşhur akademik reyting qurumları apardıqları qiymətləndirmələrdə ən böyük faktor kimi nəşr olunan məqalələri seçmişlər.

Bu araşdırmada musiqi tədqiqatları ilə bağlı iki akademik jurnalda (Journal for the Interdisciplinary Art and Education (JIAE) və Türk Müziği dərc olunmuş məqalələr üzərində ümumi bir qiymətləndirmə aparılması məqsəd qoyulmuşdur. Bununla yanaşı, bir akademik məqalədəki keyfiyyət meyarlarının müəyyən edilməsi mövzusunda, əsas problemlər və həll təkliflərinə dair araşdırma aparılması məqsəd qoyulmuşdur.

## Metod

### Araşdırma modeli

Araşdırma keyfiyyət tədqiqatı (Qualitative) üsullarından vəziyyət araşdırması növündə olub (təsvir metodu ilə), mövcud vəziyyətin təsvirini hədəfləyir. Bununla yanaşı, bu araşdırma, elmi tədqiqat üsullarına dair kitablar və internet mənbələrindən əldə edilən bilginin araşdırılması və təhlili baxımından sənəd analizi və nitq analizi texnikalarına uyğundur.

### Tədqiqat materialları

Bu araşdırmada JIAE və Türk Müziği jurnalında dərc olunan (müəyyən sayda) məqalələr (cəmi 17 məqalə) seçilmişdir. Məqalələrin araşdırılmasında elmi tədqiqatda ümumiyyətlə akademik jurnalların tələb etdiyi bəzi meyarları əhatə etmə vəziyyətinə ümumi bir perspektivdən ele alınacaqdır (baxılacaqdır). Bu meyarlar, mənim elmi tədqiqat metodları dərsləri və təlimləri zamanı hazırladığım tədris sənədləri və redaktor təcrübələrim əsasında inkişaf etdirilmişdir. Musiqi məqalələrində olması istənilən xüsusiyyətlər və meyarlar Cədvəl 1-də təqdim olunmuşdur.

**Cədvəl 1.** Musiqi məqalələrində olması istənilən xüsusiyyətlər və meyarlar

| Meyar No | Xüsusiyyətlər və Meyarlar | Məqaləyə töhfə yönü |
|---|---|---|
| **Meyar 1** | Xülasə yazımında düzən (səliqəli ardıcıllıq), açıqlıq, dəqiqlik | Nizamlılıq |
| **Meyar 2** | Giriş bölməsində girişin düzgün verilməsi | Nizamlılıq, axıcılıq, diqqətçəkicilik |
| **Meyar 3** | Araşdırmanın nəzəri əsasının olması | Əsas yaradıcılıq, əsaslandırma |
| **Meyar 4** | Araşdırma ilə bağlı ədəbiyyatın dünya miqyasında təqdim edilməsi | Əhatəlilik, aidiyyət |
| **Meyar 5** | Elmi yenilik bölməsinin iqtisadi (praktik) və orijinallıq vəziyyətini əhatə etməsi -elmi praktiki yeniliyi əhatə etməsi | Dəyərli olmaq |
| **Meyar 6** | Məqsəd və ya problemin yazılması | Nizamlılıq, əsaslandırma |
| **Meyar 7** | Araşdırma metodunun düzgün seçimi | Əhəmiyyətliliq, faydalılıq |
| **Meyar 8** | Nümunə və ya tədqiqat materiallarının müəyyən edilməsinin izahı | Etibarlılıq |
| **Meyar 9** | Məlumat toplama vasitələri/tədqiqat materialının seçim səbəbinin izah edilməsi | Əsaslandırma |
| **Meyar 10** | Məlumatın təhlilinin seçiminin və detallarının izahı | Əsaslandırma |
| **Meyar 11** | Araşdırmada irəli statistik və analiz istifadə edilməsi | Əhəmiyyətli olmaq |
| **Meyar 12** | Nəticələrin araşdırmanın məqsədi/problemi ilə uyğun şəkildə təqdim edilməsi | Nizamlılıq |
| **Meyar 13** | Müzakirənin kifayət qədər geniş və zəngin aparılması | Əhatəlilik |
| **Meyar 14** | Nəticənin kifayət qədər xülasə şəklində aparılması | Birləşdiricilik, Nizamlılıq |
| **Meyar 15** | Təkliflərin icraçılara/tədqiqatçılara yönəlik edilməsi | Əhatəlilik, faydalılıq |
| **Meyar 16** | Araşdırmanın məhdudiyyətlərinin təsviri (hansı məhdud çərçivədə aparılmasının göstərilməsi) | Əhatəlilik, faydalılıq |
| **Meyar 17** | Məlumatlandırma hissəsinin mövcudluğu | Detallılıq |
| **Meyar 18** | İstinad (Ədəbiyyat) siyahısının yazımının qaydalara uyğun və diqqətli şəkildə edilməsi | Nizamlılıq |

## Nəticələr və Müzakirə

Bu bölümdə məqalə yazımında və məqalənin keyfiyyətində müəyyən edilmiş meyarların yerinə yetirilmə səviyyələri və bu meyarların yerinə yetirilməsinə dair təkliflər təqdim ediləcəkdir.

**Cədvəl 2.** Araşdırma çərçivəsində qiymətləndirilən məqalələrin meyarlara cavab verənlərinin sayı

| Meyar No | Xüsusiyyətlər və Meyarlar | JIAE | TM |
|---|---|---|---|
| **Meyar 1** | Xülasə yazımında düzən (səliqəli ardıcıllıq), açıqlıq, dəqiqlik | 3 | 1 |
| **Meyar 2** | Giriş bölməsində girişin düzgün verilməsi | - | 2 |
| **Meyar 3** | Araşdırmanın nəzəri əsasının olması | - | - |
| **Meyar 4** | Araşdırma ilə bağlı ədəbiyyatın dünya miqyasında təqdim edilməsi | - | - |
| **Meyar 5** | Elmi yenilik bölməsinin iqtisadi (praktik) və orijinallıq vəziyyətini əhatə etməsi - elmi praktiki yeniliyi əhatə etməsi | 1 | 4 |
| **Meyar 6** | Məqsəd və ya problemin yazılması | 2 | 3 |
| **Meyar 7** | Araşdırma metodunun düzgün seçimi | 2 | 1 |
| **Meyar 8** | Nümunə və ya tədqiqat materiallarının müəyyən edilməsinin izahı | 1 | 1 |
| **Meyar 9** | Məlumat toplama vasitələri/tədqiqat materialının seçim səbəbinin izah edilməsi | 2 | 1 |
| **Meyar 10** | Məlumatın təhlilinin seçiminin və detallarının izahı | 2 | 1 |
| **Meyar 11** | Araşdırmada irəli statistik və analiz istifadə edilməsi | - | 1 |
| **Meyar 12** | Nəticələrin araşdırmanın məqsədi/problemi ilə uyğun şəkildə təqdim edilməsi | 2 | 1 |
| **Meyar 13** | Müzakirənin kifayət qədər geniş və zəngin aparılması | 1 | 1 |
| **Meyar 14** | Nəticənin kifayət qədər xülasə şəklində aparılması | 1 | - |
| **Meyar 15** | Təkliflərin icraçılara/tədqiqatçılara yönəlik edilməsi | 1 | 1 |
| **Meyar 16** | Araşdırmanın məhdudiyyətlərinin təsviri (hansı məhdud çərçivədə aparılmasının göstərilməsi) | - | - |
| **Meyar 17** | Məlumatlandırma hissəsinin mövcudluğu | - | - |
| **Meyar 18** | İstinad (Ədəbiyyat) siyahısının yazımının qaydalara uyğun və diqqətli şəkildə edilməsi | 1 | 1 |

**JIAE**: Journal for the Interdisciplinary Art and Education **TM**: Türk Müziği

Cədvəl 2-də məqalə yazımı ilə bağlı meyarlar və bu meyarlara cavab verən məqalələrin sayı verilmişdir. Bu meyarların qısa izahı edilmiş və meyarların yerinə yetirilməsinin əhəmiyyəti alt başlıqlar altında müzakirə edilmişdir.

### Meyar 1: Xülasə yazımında düzgünlük, açıqlıq, dəqiqlik

Məqalədə ən vacib elementlərdən biri xülasədir. Xülasənin müəyyən standart və qaydalara uyğun yazılması tələb olunur. Xülasə, məqalənin bütününü əks etdirməlidir. Bununla yanaşı, xülasə oxucunun diqqətini çəkən xüsusiyyətə də malik olmalıdır. Aparılan araşdırmada JIAE-dəki üç məqalənin və TM-dəki bir məqalənin bu xüsusiyyətləri daşıdığı müəyyən edilmişdir. Bu mövzu ilə bağlı olaraq Beynəlxalq Rast Musiqi Konqresinin veb saytında iştirakçılar üçün xülasə hazırlama təlimatı vardır (Web 4).

Xülasədə giriş cümləsi, araşdırmanın əhəmiyyəti və problemi (məqsədi), araşdırma modeli, materiallar/iştirakçılar, məlumat toplama vasitələri, məlumat analizi, nəticələr, nəticə və təkliflər bölmələrinin müəyyən meyarlara uyğun olaraq yer alması tələb olunur. Aparılan araşdırmalarda, araşdırma mövzusu ilə uzun və lazımsız izahatların olduğu, nəticə və nəticə hissəsinin çox qısa olduğu və məqalələrin əksəriyyətində araşdırmanın metodundan bəhs edilmədiyi görünür.

### Meyar 2: Giriş bölməsində düzgün girişin verilməsi

Giriş bölməsində tədqiqatçı oxucunun diqqətini çəkən araşdırma hesabatlarına və xəbərlərə istinad edərək başlamalıdır. Lakin araşdırılan məqalələrdə birbaşa mövzuya və anlayışlara giriş olduğu görünür. Bununla bağlı olaraq JIAE-də heç bir məqalədə buna diqqət yetirilmədiyi, TM-də isə yalnız 2 məqalənin buna uyğun yazıldığı müəyyən edilmişdir.

Giriş cümləsi və ya giriş paraqrafı məqalənin əsas mövzularına nəzəri və anlayış çərçivəsini açıqlamadan əvvəl diqqət çəkici və oxucunu məqaləni oxumağa təşviq edən formada olmalıdır.

**Meyar 3: Araşdırmanın nəzəri əsasının olması**

Ümumiyyətlə, tədqiqatçılar bir mövzunu seçərkən "heç işlənməmiş, bu mövzunu mən işləməliyəm" kimi bir motivasiya ilə hərəkət edirlər. Bir mövzunun spesifik və işlənməmiş olması əlbəttə ki, araşdırmaya böyük güc qatır. Lakin bu cür düşünülən tədqiqatın bir nəzəriyyəçi tərəfindən daha əvvəl işlənmiş olması bəzən nəzərdən qaçırılır. Sosial elmlərdəki araşdırmaların hamısı nəzəri bir baxışla araşdırılmalıdır. Nəzəri çərçivə olmadan tədqiqatın araşdırılması, tədqiqatın doğru bir baxış bucağı ilə işlənilməsinə mane olacaq və nəticələrdə yanlış qərarlar alınmasına səbəb olacaq. Hər bir tədqiqatçı tədqiqata başlamazdan əvvəl nəzəri bir baxış bucağına malik olmalıdır. Bu, keyfiyyətli araşdırma paradigmasında "nəzəri yüklülük" kimi ifadə edilir (Böyüköztürk və başqaları, 2010). Tədqiqatçı bəzən fərqinə varmadan öz ağlındakı bir nəzəriyyə ilə hərəkət edir. Bir tədqiqatın elmi olması üçün onun elmi icmada qəbul edilən və müzakirə edilən nəzəriyyələrlə açıqlanması vacibdir.

Musiqi tədqiqatlarında tədqiqatçının musiqi sahəsinin təsirləndiyi digər elmlər sahəsinə hakim olması nəzəri çərçivə qura bilməsi üçün vacibdir. Buna görə, yaxşı bir musiqişünas sosialogiya, fəlsəfə, antropologiya və tarix kimi elmlər üzrə dərin biliklərə sahib olmalıdır.

Bu mövzuda JIAE və TM-də incələnən məqalələrin heç birində nəzəri çərçivənin olmadığı müəyyən edilmişdir. Bu vəziyyət olduqca diqqətçəkəndir. Məqalələrdə nəzəri çərçivənin olmaması, onların əsas təməl dayanaqlarının olmamasına və arqumentasiya problemlərinə səbəb olur. Nəzəri çərçivəni müəyyən edə bilməyən tədqiqatçının tədqiqat nəticələrini düzgün müzakirə edə bilməməsi, müzakirə bölməsində ciddi bir baxış bucağının olmamasına və nəticələrin səthi qalmasına səbəb olur.

**Meyar 4: Araşdırma ilə bağlı ədəbiyyatın beynəlxalq səviyyədə təqdim edilməsi**

İncələnən hər iki jurnalın məqalələrində mövzu ilə bağlı ədəbiyyatın beynəlxalq səviyyədə təqdim edilməsinə rast gəlinməmişdir.

Türkiyədə musiqi sahəsində nəşr edən akademik jurnalların milli səviyyədən beynəlxalq səviyyəyə çıxması olduqca çətin bir məsələdir (Tortop və Demirel, 2023). Tədqiqatçılar arasında, "yalnız Türkiyədə araşdırmalar aparılır və buna görə də xarici ədəbiyyata baxmaq lazımsızdır" kimi bir yanlış təəssüratın olduğu görünə bilər. Lakin nəzəri çərçivənin olması tədqiqatı beynəlxalq səviyyəyə çıxarır. Çünki nəzəriyyələr, müəyyən hadisələri açıqlamaq üçün sistemlər olduğu üçün çox vaxt zaman və məkan dəyişikliklərinə qarşı dayanıqlı olur. Məsələn, müəyyən dövrdə keçərli olan nəzəri izah başqa bir dövrdə də eyni hadisələrin baş verə biləcəyini öncədən görə bilər. Lakin bəzi hallarda cəmiyyətlərin fərqliliyi ilə fərqli nəzəri izahlar mümkündür. Tədqiqatçı nəzəri çərçivəsini müəyyən etdikdən sonra tədqiqatını beynəlxalq səviyyədə müqayisəli şəkildə təqdim etdikdə, beynəlxalq səviyyədəki ədəbiyyatı tədqiq etməyə və fərqlilikləri, oxşarlıqları ortaya qoymağa başlayır.

Musiqi tədqiqatlarında tədqiqatçılar arasında elmi bilginin yığcam (toplanıcı) olduğu ilə bağlı yanlış bir anlayış ola bilər. Elm fəlsəfəsinin əsas müzakirə sahələrindən biri olan elmi bilginin istehsal prosesində Popper (1959) tərəfindən irəli sürülmüş elmi bilginin yanlışlana bilməsi prinsipi (Türkçəyə Aka & Turan tərəfindən tərcümə, 2015) mühüm bir nəzəriyyədir və bu, elmi bilginin yığcam şəkildə deyil, tədricən dəyişərək və süzülərək istehsal edildiyini göstərir. Bu mövzuya Thomas Kuhn'un "Elmi İnqilabların Strukturu" adlı kitabındakı nəzəriyyələr də mühüm töhfə verir. Kuhna görə, elmi biliklər (nəzəri səviyyədə) inqilabi bir dəyişmə ilə yeni mərhələyə keçir (Türkçəyə tərcümə, Kuya, 2015). Lakin bəzi sahələrdə, məsələn, etnoqrafik tədqiqatlarda bir cəmiyyətin və ya qrupun xüsusiyyətlərinin aşkar edilməsi və təsviri kimi araşdırmalarda elmi bilginin kümülatif (məcmu) olduğu qismən doğru ola bilər. Bir hadisənin təsviri tədqiqatın ilkin mərhələsi olsa da, dəyər baxımından ən aşağı səviyyədədir. Əsas tədqiqat aparılmadan nəzəri işlərin meydana gəlməsi mümkün deyil. Lakin musiqi tədqiqatçılarının təsviri səviyyədəki araşdırmalarını digər bölgə, cəmiyyət və ya ölkələrlə müqayisəli şəkildə aparması, tədqiqatın beynəlxalq ədəbiyyatda da müzakirə edilməsinə imkan verəcəkdir. Məsələn, bir bölgənin mahnılarının araşdırılması kimi bir tədqiqatın, "bu bölgənin mahnılarının mədəni qarşılıqlı təsir və ya münaqişə (kəsişmə) kontekstində araşdırılması" şəklində dəyişdirilməsi, tədqiqatın beynəlxalq səviyyədə mədəni qarşılıqlı təsir və ya münaqişə (təzad) perspektivi ilə digər tədqiqatlarla kəsişmələrini ortaya çıxaracaqdır.

**Meyar 5: Əhəmiyyət bölməsinin iqtisadi və orijinallıq vəziyyətini əhatə etməsi**

Aparılan araşdırmada JIAE-də bir məqalənin və TM-dəki beş məqalənin bu prinsipə uyğun yazıldığını müəyyən etdim. Tədqiqatın əhəmiyyət bölməsi adətən tədqiqatçılar tərəfindən məqalələrdə diqqət edilən bölmələrdən biridir. Lakin bu mövzuda bəzi yanlış anlayışların da olduğu görünür. Əhəmiyyətin yalnız "ilk dəfə mən bu mövzunu işlədim" arqumenti ilə yazıldığı görünür. Lakin bu yanaşmanın düzgün olmadığını Türk Müziği Akademisi təlimlərində də vurğulamışam. Məsələn, sizin vacib bir fondun rəhbəri olduğunuzu və müəyyən tədqiqatları dəstəkləmək səlahiyyətinizin olduğunu düşünək. Hansı tədqiqatlara bu fondu yönəldərsiniz və nə üçün? sualının cavabının iqtisadi baxımdan əhəmiyyət ifadəsi olduğunu deyə bilərəm.

Bununla yanaşı, orijinallıq (elmi yenilik) anlayışını düzgün başa düşmək üçün yaradıcılıq nəzəriyyələrinin də yaxşı anlaşılması vacibdir. Sanılanın əksinə, bir şeyin orijinal olması və ya yaradıcılıq xüsusiyyətinin olması, onun ilk dəfə işlənməsi ilə birbaşa əlaqəli deyil. Orijinallıq sosial elmlərdə və təbiət elmlərində olduğu kimi yeni bir bitki növü tapmaqdan daha geniş bir xüsusiyyətə malikdir. Çünki sosial elmlərdə ortaya çıxarılan bir çox bilginin fərqli cəhətdən digər biliklərlə əlaqələrinin olduğu açıqdır. Buna görə, orijinallıq tamamilə izolyasiya olunmuş, qapalı bir bilginin ortaya çıxarılması demək deyil. Əksinə, musiqi tədqiqatçısının tapdığı yeni biliyi digər sahələrlə əlaqələndirə bilməsi onu daha orijinal edə bilər. Bu vəziyyəti belə izah edə bilərik: tədqiqata yalnız bir rəngli eynəklə baxmamaq, "tədqiqata bir çox rəngdə eynəklə baxaraq əsl rəngi ortaya çıxarmaq" orijinallıq anlayışını daha yaxşı açıqlaya bilər.

**Meyar 6: Məqsəd və ya problemin yazılması**

Aparılan araşdırmada JIAE-də iki məqalənin və TM-də üç məqalənin məqsəd və ya problemin yazılmasına diqqət yetirildiyi görünür. Məqsəd və ya problemin ayrıca bir başlıq altında yazılıb-yazılmaması da olduqca vacibdir. Bir çox tədqiqatçı bu bölmənin ayrı yazılmasını əhəmiyyətli hesab etmir. Bu bölmənin yalnız dissertasiya yazımında (işində) vacib olduğunu, amma məqalə yazılmasa da ola biləcəyini düşünür. Halbuki, bir çox şəxs tədqiqatın hansı dinamiklərlə başladığını birbaşa bu bölməni oxuyaraq anlaya bilər.

Tədqiqatda tədqiqatçının tədqiqatı nə üçün həyata keçirmək istədiyi və hansı çətinliklərlə üzləşdiyi mövzu tədqiqat problemini təşkil edir. Bu problemin həlli üçün təyin edilən hərəkət yolu isə tədqiqatın məqsədidir.

Musiqi tədqiqatçılarının nəzəri çərçivə ilə müəyyən etdiyi araşdırma sahəsinin dəqiq sərhədlərlə müəyyən edilməsi tədqiqatın tənzimlənməsi üçün də vacibdir. Çünki tədqiqatın problemi və alt problemləri nəticələr bölməsində bu ardıcıllıqla təqdim edilməlidir. Bu vəziyyət eyni zamanda tədqiqatçının doğru planlama və təqdimat etdiyini göstərən göstərici olacaqdır. Bu mövzu başqa bir meyarla daha detallı izah ediləcəkdir.

**Meyar 7: Araşdırma metodunun düzgün seçilməsi**

Aparılan araşdırmada JIAE-dəki beş məqalənin və TM-dəki bir məqalənin bu meyarlara uyğun şəkildə yazıldığı müəyyən edilmişdir. Araşdırma metodu bölməsinin musiqi tədqiqatçıları tərəfindən çox vaxt yazılmadığı görünür. Bunun səbəbi məqalələrin icmal məqaləsi (review article) kimi qəbul edilməsindən qaynaqlanır. Lakin icmal məqaləsi müəyyən bir sahədə ən yaxşı müzakirələrin aparıldığı məqalələrdir. İcmal məqaləsi metod bölməsinin yazılmasını zəruri etməsə də, tədqiqatçının bütün ədəbiyyata hakim olaraq ən yaxşı şəkildə müzakirə aparmasını tələb edir. Musiqi tədqiqat məqalələrinin əksəriyyətinə bu baxımdan baxıldıqda, əslində icmal məqaləsi olmadığı görünür. Buna görə, musiqi məqalələrində metod bölməsi (metodologiya) mütləq olmalıdır. Musiqi tədqiqatçısı, tədqiqatında hansı tədqiqat metodundan istifadə etdiyini yazmalıdır. Doğru tədqiqat metodunu seçmək üçün aşağıdakıları etmək olar: Musiqi tədqiqatçısı, tədqiqat metodlarının düzgün müəyyən edildiyi məqalələri çox araşdırmalı və beləliklə, öz tədqiqat anlayışını inkişaf etdirməlidir. Məqalədə seçilən tədqiqat metodunun nə üçün seçildiyi ilə bağlı arqumentlər də yazılmalıdır.

**Meyar 8: Nümunənin və ya sənədlərin müəyyən edilməsinin izahı**

Aparılan araşdırmada JIAE və TM-də bir məqalədə nümunənin və ya sənədlərin (tədqiqat materialının) müəyyən edilməsinə aid ayrıca bir bölmənin olduğu müəyyən edilmişdir.

Kəmiyyət tədqiqatlarında əhatə, nümunə kimi anlayışlar tədqiqatın ümumiləşdirilməsi baxımından vacibdir. Keyfiyyət tədqiqatlarında isə tədqiqatın etibarlılığı və güvənilirliyi baxımından hansı nümunə götürmə metodunun

müəyyən edildiyi göstərilməlidir. Lakin musiqi tədqiqatlarında vəziyyət bir az fərqlidir və tədqiqat obyektləri əsərlər və sənədlərdir (və digər tədqiqat materiallarıdır). Buna görə, tədqiqatçı hansı sənədləri (materialları) nə üçün müəyyən etdiyini izah etməlidir.

**Meyar 9: Məlumat toplama vasitələri/sənədlərin (tədqiqat materialının) seçilmə səbəbi və izahı**

Aparılan araşdırmada JIAE-də iki və TM-də bir məqalənin bu meyarları yerinə yetirdiyi müəyyən edilmişdir. Musiqi tədqiqatlarında məlumat toplama vasitələrinin və ya sənədlərin (tədqiqat materialının) müəyyən edilməsi ilə yanaşı, nə üçün bu məlumat toplama vasitələrinin və sənədlərin (tədqiqat materialının) seçildiyi də ətraflı izah olunmalıdır. Tədqiqatçıların bu məqamda laqeyd davranmaları "necə olsa məlumdur" kimi bir yanaşmadan irəli gələ bilər. Lakin seçim meyarlarını müəyyən etmək və bunu açıq şəkildə ortaya qoymaq tədqiqatın çərçivəsində qalması və buna uyğun şəkildə aparılmasının göstərilməsi baxımından vacibdir.

**Meyar 10: Məlumat təhlilinin seçilməsi və detallı izahı**

Aparılan araşdırmada JIAE-də iki və TM-də bir məqalənin bu meyarları yerinə yetirdiyi müəyyən edilmişdir. Məlumat təhlili xam (işlənməyən) məlumatların məna kəsb edən nəticələrə çevrilməsi üçün olduqca vacibdir. Bu, düzgün məlumat təhlili metodunun istifadəsi ilə mümkündür. Məlumatlar üçün təhlil metodu tapmaq, kəşf etmək və tətbiq etmək ayrıca bir mütəxəssislik sahəsidir. Bu baxımdan məlumat təhlilinin detallı şəkildə və mənbə göstərilərək izah edilməsi olduqca vacibdir.

**Meyar 11: Tədqiqatda irəli statistik və təhlil metodlarının istifadəsi**

Aparılan araşdırmada yalnız TM-dəki bir məqalənin bu meyarlara uyğun olduğu müəyyən edilmişdir. Musiqi tədqiqatlarında keyfiyyət və kəmiyyət tədqiqat metodlarının istifadəsində sadə səviyyədə statistikalar olan faiz və tezlik kimi təhlillərlə aparılan şərhlər olduqca səhvdir. Bununla yanaşı, qruplar arasında fərqliliyin müəyyən olunduğu tədqiqatlara da artıq çox etibar edilmədiyi görünür. Artıq kəmiyyət tədqiqat metodlarının istifadə olunduğu tədqiqatlarda, dəyişənlər arasında əlaqələrin müəyyən olunması və modellərin yaradılması ilə nəzəriyyəyə nail olma cəhdlərinin etibar qazandığı məlumdur. Keyfiyyət tədqiqatlarında isə mürəkkəb tərtibli tədqiqatlara hadisələrin izahında daha çox üstünlük verilir. Bu baxımdan musiqi tədqiqatçılarının irəli statistik metodlardan məqalələrində istifadə etməsi olduqca vacibdir.

**Meyar 12: Nəticələrin tədqiqat məqsəd/problemi ilə uyğunluqda təqdim olunması**

Bu meyarlara diqqət edən JIAE-də iki və TM-də bir məqalə olduğu müəyyən edilmişdir. Əvvəlki meyarlardan biri olan tədqiqat məqsəd və ya probleminin müəyyən olunması və ayrıca bölmə kimi yazılması tədqiqatın strukturunun formalaşdırılmasında ilk vacib məqamdır. Tədqiqat problemi və alt problemlərin yazılması, bu problemlərə dair nəticələrin də eyni ardıcıllıqla təqdim olunması ilə tədqiqatda nizamı təmin edəcəkdir. Çünki hansı tədqiqat probleminin araşdırılıb-araşdırılmadığı bu cür təqdimatla aydın şəkildə görünəcəkdir.

**Meyar 13: Müzakirənin yetərli və zəngin aparılması**

Bu meyara uyğun olaraq JIAE-də və TM-də yalnız bir məqalənin yazıldığı müəyyən edilmişdir. Musiqi tədqiqatlarında müzakirənin yetərli aparılması məsələsində müəlliflərin "bu mövzunu ilk dəfə mən işləyirəm" kimi bir yanaşmaya malik olduqları görünür. Lakin daha əvvəl də qeyd edildiyi kimi "nəzəri çərçivənin yazılması" meyarında nəzəri və anlayış çərçivəsinin müəyyən edilməsi ilə tədqiqat ədəbiyyat baxımından da dərinlik qazanacaqdır. Eyni nəzəri çərçivə ilə aparılan tədqiqatlar, tədqiqatçı üçün müzakirə edə biləcəyi bir materiala çevriləcəkdir. Dissertasiya yazımında məcburi olan əlaqədar ədəbiyyat bölməsi bəzən bir-birindən ayrı olan əlaqəli tədqiqatların sadalanması şəklində təqdim edilir. Məqalə yazarkən də əlaqədar ədəbiyyat alt başlığının yazılması bəzən qəbul oluna bilər, amma məqalədə əlaqədar ədəbiyyatın müəyyən və əlaqəli bir ardıcıllıqla təqdim olunması lazımdır. Bu təqdimat, bir-birindən ayrı şəkildə əlaqədar tədqiqatları sadalamaq şəklində deyil, onların nəticələrini bir axınla birləşdirmək şəklində olmalıdır. Müzakirə, əlaqədar ədəbiyyat bölməsinin bir təkrarı şəklində olmamalıdır. Müzakirə, nəticələrin ardıcıllıqla təqdim olunub, arxasınca əlaqədar ədəbiyyatın əlavə edildiyi, müzakirə olunduğu və beləliklə tədqiqatın bir tamlıq qazandığını və yeni bir strukturun formalaşdığını göstərən bir şəkildə olmalıdır.

**Meyar 14: Nəticənin yetərli bir xülasə şəklində yazılması**

Bu meyara uyğun olaraq JIAE-də yalnız bir məqalənin bu meyarlara cavab verdiyi müəyyən edilmişdir. Nəticə bölmələri sosial elmlər sahəsində olan tədqiqatlarda təbiət elmlərindən fərqlidir. Təbiət elmlərində tədqiqat eksperimental metodla bağlıdır və əldə edilən nəticələr çox qısa və konkret olur. Məsələn, bir alaşımın fərqli eksperimental metodlarla təhlili nəticəsində bu alaşımın avtomobil sənayesində müəyyən hissələrdə istifadə olunub-olunmayacağı ilə bağlı qərar verilir. Bu isə çox qısadır. Məsələn, istehsal edilən alaşım, möhkəmlik xüsusiyyətlərinə görə hərəkət komponentlərində istifadə üçün uyğundur kimi. Lakin sosial elmlərdə tədqiqatların məqsədi dəqiq nəticələr çıxarmaq deyil, bir hadisəni təsvir etməkdir (Baş və Akturan, 2008). Buna görə də, sosial elmlər tədqiqatlarında nəticə bölməsində tədqiqatın ümumi xülasəsinin yenidən yazılması vacibdir. Bu baxımdan musiqi tədqiqatçısı, oxucunun yalnız nəticə bölməsinə baxaraq tədqiqatın digər bölmələrinə baxmaq məcburiyyətində qalmayacağı bir xülasəni təqdim etməlidir.

Musiqi tədqiqatlarında tədqiqatçıların nəticə bölməsini maddə şəklində təqdim etməsi də görünür. Lakin bu cür təqdimat yalnız təkliflər bölməsində tətbiq oluna bilər.

**Meyar 15: Təkliflərin icraçılara və gələcək tədqiqatlara yönəlik verilməsi**

Bu meyarlara uyğun gələn JIAE və TM-də yalnız bir məqalə olduğu görünür. Tədqiqatçıların təkliflər bölməsini ayrıca yazmadıqları müəyyən edilmişdir. Bir tədqiqatın təkliflər bölməsinin yazılması əslində o tədqiqatın yaşaması və təzə (aktual) qalması üçün olduqca vacibdir. Bir məqalənin dəyəri onun istinad alınma potensialı ilə ölçülür. Məqalənin istinad alması (məqaləyə istinad verilməsi) üçün təkliflər bölməsi olduqca vacibdir. Musiqi tədqiqatçısı, tədqiqat sahəsində gələcəkdə hansı sahələrin yenidən araşdırılmalı olduğunu "gələcək tədqiqatlara təkliflər" başlığı ilə verə bilər. Bu yolla məqaləni oxuyanlara "mən bunları araşdırdım, amma siz bu mövzuları da araşdıra bilərsiniz" deyə bilər. Əksər hallarda bir tədqiqatçı bir sahədə bir neçə məqalə oxuduqda, tədqiqat sahəsindəki boşluqları tez bir zamanda görə bilər. Lakin, dərinliyi olmayan insanlar bunu görə bilməz. Bununla yanaşı, akademikliyə (tədqiqatçılığa) yeni başlayan magistratura tələbələri üçün də bu bölmənin olduqca vacib olduğu söylənə bilər.

Bununla yanaşı, aparılan tədqiqat yalnız tədqiqatçılara deyil, həm də həmin sahədə fəaliyyət göstərən icraçılara da faydalı və tətbiq oluna bilən məlumatlar təqdim edəcəkdir. Buna görə də bunların da təkliflər bölməsində "icraçılara təkliflər" şəklində verilməsi olduqca vacibdir.

**Meyar 16: Tədqiqatın məhdudiyyətlərinin təsviri**

İncələnən məqalələrin heç birində tədqiqatın məhdudiyyətlərinin müəyyən edilmədiyi görünür. Musiqi tədqiqatlarında tədqiqatçı, tədqiqatının konkret sərhədlərini müəyyən etsə, əldə edilən məlumatların hansı sərhədlər daxilində etibarlı olduğunu da müəyyən etmiş olar. Bu vəziyyət həm məqaləni nəzərdən keçirən hakim üçün, həm də məqaləni oxuyan şəxs üçün doğru baxış bucağını əldə etməyə imkan verəcəkdir. Əks təqdirdə, oxucunun yanlış nəticələr çıxarmasına səbəb ola bilər. Tədqiqatın məhdudiyyətlərinin yazılması yaxşı bir məqalədə olması lazım olan (gərəkli) bölmələrdən biri kimi qəbul edilməli və musiqi tədqiqatlarının yazımında bir vərdiş halına gətirilməlidir.

**Meyar 17: Məlumatlandırma hissəsinin olması**

Məlumatlandırma (Acknowledgment) bölməsi, xüsusən tədqiqatın etik çərçivəsi ilə əlaqədar məlumatların təqdim olunduğu, təşəkkürlərin edildiyi, oxucuya tədqiqat haqqında əlavə zəruri məlumatların təqdim edildiyi bölümdür. Bu bölmənin də incələnən məqalələrdə yer almadığı görünür.

**Meyar 18: İstinad (Ədəbiyyat) siyahısının qaydalara uyğun və diqqətli şəkildə yazılması**

Aparılan araşdırmada hər iki jurnalda bir məqalənin bu meyarlara uyğun olduğu görünür. Hər bir jurnalın istinad (ədəbiyyat) siyahısının yazılması üçün fərqli qaydalar tətbiq etməsi müəlliflər üçün yorucu ola bilər, amma ümumiyyətlə sosial elmlərdə APA üslubu istifadə olunur. Müəlliflərin ən azı istinad (ədəbiyyat) yazımı qaydalarının əsas qaydalarını (şərtlərini) bilməsi vacibdir. Lakin daha vacib mövzu isə istinad mənbəyinin detalları natamam yazıldıqda ortaya çıxan vəziyyətdir. Məsələn, bir jurnal məqaləsinin istinadında cild, nömrə, səhifə kimi detallar laqeyd yanaşıla bilər.

Bir məqalənin diqqətli yazılmasında ən vacib göstəricilərdən biri istinad siyahısının diqqətlə yazılmasıdır. Diqqətli bir tədqiqatçı bütün istinadları (mənbələri) bir-bir taparaq onlara çatır, onları istinad (ədəbiyyat) siyahısında bütün detallar ilə qeyd edir. Bu mövzu ilə bağlı diqqəti artırmaq üçün akademik jurnal sistemləri düzgün istinad göstərmə ilə əlaqədar ayrıca tətbiqlər və ya proqramlar yaratmışdır. Musiqi tədqiqatçılarının düzgün istinad göstərmə ilə bağlı bu vasitələrdən istifadə etmələri tövsiyə olunur. Lakin kitab, dissertasiya, konfrans məruzəsi kimi digər tədqiqat növlərində istinadları özlərinin yazmaları lazımdır. Bununla yanaşı, ingiliscə nəşr edən bir jurnalda türk dilində olan mənbələrin başlıqlarının mötərizədə ingiliscə tərcümələrinin verilməsi, türk dili bilməyən oxucular üçün olduqca faydalı olacaqdır.

## Nəticə

Türkiyədə musiqi tədqiqatlarının inkişafı, musiqi tədqiqatçılarının elmi və akademik yazı bacarıqlarının inkişafından asılıdır. Musiqi tədqiqat məqalələrinin keyfiyyətinin artırılması üçün məqalə yazımı ilə bağlı bəzi prinsiplərin yeni akademik jurnallarda irəli sürüldüyü görünür. Bununla yanaşı, tərəfimdən ödənişsiz olaraq 6 həftə ərzində keçirilən Türk Müziği Akademisi təlimi, musiqi tədqiqatlarının inkişafı üçün nəzərdə tutulmuşdur (web 2). Türk musiqisi tədqiqatlarının Türkiyədə və dünyada ən böyük arxivinə çevrilməyi hədəfləyən Türk Müziği jurnalı da yazıçılar üçün yazım qaydalarında meyarları və prinsipləri qeyd edir. Lakin araşdırmaya daxil edilən hər iki jurnalda nəşr olunan məqalələrin əksəriyyətinin -bu həssaslığa baxmayaraq- müəyyən edilmiş meyarlara uyğun olmadığı görünmüşdür. Xüsusilə, tədqiqatın nəzəri çərçivəsinin yazılması, tədqiqatın məhdudiyyətlərinin yazılması və məlumatlandırma bölməsinin yazılması meyarlarında məqalələr mövcud deyil. Digər meyarlarda isə məqalələrin əksəriyyəti meyarlara uyğundur. Bu araşdırma, Türkiyədəki musiqi tədqiqat məqalələrinin keyfiyyətinin inkişaf etdirilməsi ilə bağlı vacib bir çərçivə cızması (müəyyən etməsi) baxımından bu sahədə çalışan akademiklər, redaktorlar, hakemlər (rəyçilər) kimi şəxslərə mənbə və rəhbərlik etməsinə töhfə verə bilər. Musiqi (xüsusilə musiqişünaslıq) sahəsindəki tədqiqatçılara, keyfiyyət və kəmiyyət tədqiqat metodologiyaları haqqında detallı araşdırmalar aparmaları tövsiyə olunur.

## Tədqiqatın Məhdudiyyətləri

Bu araşdırma JIAE və Türk Müziği jurnallarında 2023-cü ildə nəşr olunan məqalələr, bu jurnalların nəşr prinsipləri və yazım qaydalarında qeyd olunan və Türk Müziği Akademisində verilən təlimin məzmunundakı meyarlarla məhdudlaşır.

## Məlumatlandırma

Bu araşdırmanın bir hissəsi ISIPAE2023-də təqdim edilmişdir.

## Mənbələr

Baş, T., & Akturan, U. (2008). *Nitel araştırma yöntemleri Nvivo 7.0 ile nitel veri analizi*. Seçkin yayıncılık.

Büyüköztürk, Ş., Kılıç, Ç. E., Akgün, Ö. E., Karadeniz, Ş. ve Demirel, F. (2008). *Bilimsel araştırma yöntemleri*. Pegem Akademi.

Kuhn, T. S. (2015). *Bilimsel Devrimlerin Yapısı*. Çev. Nilüfer Kuyaş. İstanbul: Kırmızı Yayınları.

Popper, K. R. (2015). *Bilimsel Araştırmanın Mantığı*. Çev. İlknur Aka ve İbrahim Turan. İstanbul: Yapı Kredi Yayınları.

Tortop, H.S., ve Demirel, S. (2023). Türkiye'de müzik araştırmalarının gelişmesi bağlamında akademik dergilerin betimsel incelenmesi. *Türk Müziği, 3*(1), 161-166.

**Web siteleri**

Web 1. https://dergipark.org.tr/

Web 2. https://turkmuzigidergisi.com/index.php/tm/muzikakademi

Web 2. https://akademik.yok.gov.tr/AkademikArama/

Web 3. https://rastmusiccongress.org/